2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 yanvar 2020-ci il tarixli 63 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 05 yanvar 2020-ci il

2020-ci il yanvarın 4-də 114 saylı Şəki kənd birinci seçki dairəsinin Kiçik Dəhnə bələdiyyəsi üzrə qeydə alınmış namizəd Abdurahmanova Kəmalə Alim qızı və digərləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, həmin seçki dairəsinin 35 saylı seçki məntəqəsində qanun pozuntularının baş verdiyini iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Ekspert qrupunun üzvü olaraq həmin müraciəti nəzərdən keçirərkən onun müddət ötürülməklə verildiyini müəyyən etdim.

Azərbaycan Respubliası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1.1-ci və 4.1.2-ci bəndlərinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət verilə bilər.

Kiçik Dəhnə bələdiyyəsi üzrə qeydə alınmış namizəd Abdurahmanova Kəmalə Alim qızı və digərləri 23 dekabr 2019-cu ildə keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar səsvermə günü seçki məntəqələrində baş verməsi iddia edilən pozuntularla bağlı müraciətlərini dekabrın 28-də poçta təqdim etmişlər. Bununla da şikayətvermə müddəti ötürülmüşdür.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1.1-ci, 1.2-ci, 4.1.2-ci, 7.1-ci və 7.10.2-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 114 saylı Şəki kənd birinci seçki dairəsinin Kiçik Dəhnə bələdiyyəsi üzrə qeydə alınmış namizəd Abdurahmanova Kəmalə Alim qızı və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 yanvar 2020-ci il tarixli 63 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçilərə geri göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov